Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir

# İnsanın Kədərinin Başlanğıcı



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Byron Unger; Lazarus Alastair Paterson

Uyğunlaşdıran: M. Maillot; Tammy S.

Tərcümə edən: Günay  Karaağac

Təqdim edən: Bible for Children
www.M1914.org

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.


ALLAH HƏR ŞEYİ YARATDI! Allah ilk insanı, Adəmi yaradanda, o, Eden bağında öz arvadı Həvva ilə birlikdə yaşayırdı. Onlar Allaha itaət edərək və Onun hüzurundan həzz alaraq kamil şəkildə xoşbəxt idilər…lakin bir gün…

İlan qadına dedi: “Doğrudanmı, Allah sizə bağda olan heç bir ağacın bəhrələrindən yeməyin deyib?” Qadın ilana dedi: “Əgər biz meyvədən yesək və ya ona toxunsaq öləcəyik!” İlan qadına dedi: “Yox, əsla ölməyəcəksiniz”. “Allah kimi olacaqsınız”. Həvva o ağacın meyvəsindən istədi. O, liana qulaq asdı və meyvədən yedi.



Həvva Allaha itaətsizlik edəndən sonra o, Adəmi də meyvədən yeməyə sövq etdi.  Adəm, “Yox! Mən Allahın Sözünə itaətsizlik etməyəcəyəm”
deməli idi.





Adəm və Həvva günah işlədəndə onların
hər ikisi də çılpaq idilər. Əncir yarpaqlarını bir-birinə
hörüb özlərinə fitə düzəltdilər, onlar özlərini örtdülər və
Allahın hüzurundan qaçıb kolluqların içində gizləndilər.

Günün sərinliyində Allah bağa gəldi. O, Adəm və Həvvanın nə etdiklərini bilirdi. Adəm Həvvanı günahlandırdı. Həvva da ilanı günahlandırdı. Allah dedi: “İlan lənətlidi. Qadın uşaqları ağrı içində doğacaq”. “Adəm, günah işlətdiyinə görə torpaq tikanlarla və qanqallarla lənətlənir. Ömrün boyu zəhmətlə torpaqdan yemək əldə edəcəksən”.





Allah Adəm və Həvvanı
Eden bağından çıxartdı.
Çünki onlar günah
işlətdilər, onlar
həyat verən
Allahdan ayrı
düşdülər!


Allah onları kənarda saxlamaq üçün  fırlanan odlu qılıncını qoydu.  Allah Adəm və Həvva üçün dəridən paltar düzəltdi. Allah dərini haradan götürdü?

Adəm və Həvvanın ailəsi yarandı. Onların ilk oğlu Qabil əkinçi oldu. Onların ikinci oğlu Habil çoban oldu. Bir gün Qabil hədiyyə olaraq bir neçə tərəvəzi Allaha gətirdi. Habil öz qoyunlarından ən yaxşı olan bir neçəsini Allaha hədiyyə kimi gətirdi. Allah Habilin hədiyyəsindən məmnun oldu.



Allah Qabilin hədiyyəsindən məmnun qalmadı.  Qabil çox qəzəbləndi. Lakin Allah dedi: “Əgər yaxşı iş görürsənsə, Mən qəbul etmərəmmi?”



Qabilin qəzəbi keçmədi.  Bir müddət keçdikdən sonra o, çöldə Habilə hücum etdi və onu öldürdü!



Allah Qabildən soruşdu: “Qardaşın Habil haradadır?” O dedi: “Mən bilmirəm. Məgər mən qardaşımın keşikçisiyəm?” Allah onun işləmək gücünü götürdü və onu sərgərdan etdi.



Qabil Rəbbin hüzurundan getdi.  O, Adəm və Həvvanın qızı ilə evləndi.  Onların ailəsi oldu.  Tezliklə Qabilin yaratdığı şəhər onun nəvələri və nəticələri ilə doldu.



Bu arada Adəm və Həvvanın ailəsi çox tez artdı.  O günlərdə insanlar bugünkündən daha çox yaşayırdılar.



Onun oğlu Şet doğulanda Həvva dedi:
“Habilin yerinə Allah mənə başqa bir oğul
bəxş etdi”.  Şet saleh adam idi və o, 912 il
yaşadı və çoxlu uşaqları oldu.




Dünyada nəsillər bir-birinin ardınca gəldikcə,
insanlar daha da zalımlaşırdılar. Nəhayət,
Allah bəşəriyyəti məhv etməyi qərara
aldı bütün çöl heyvanlarını və quşları.
Allah onları yaratdığına peşman idi.
Ancaq bir adam Allahı
razı salırdı…



Bu adam Nuh idi. Şetin nəslindən olan Nuh saleh və qüsursuz adam idi. O, Allahla bir yol gedirdi. O, öz üç oğluna da Allaha itaət etməyi öyrətmişdi. İndi isə Allah Nuhu çox qəribə və xüsusi bir yolla istifadə edəcək!

# İnsanın Kədərinin Başlanğıcı

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Yaradılış 3-6

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**